

## Tulparxan Şarabudinoviç Salavatov (1950-2021)

AMEA-nın müxbir üzvü, tanınmış neftçi-alim Tulparxan Şarabudinoviç Salavatov 16 avqust 2021-ci ildə vəfat etmişdir.

Salavatov Tulparxan Şarabudinoviç 13 oktyabr 1950-ci ildə anadan olmuşdur. 1972-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) neft-mədən fakültəsini bitirərək təyinatla Azərbaycan SSR EA DNQYPİ-yə göndərilmişdir. Həmin institutda 1978-ci ilə qədər "Neft, qaz və qaz-kondensat yataqlarının işlənməsi" laboratoriyasında kiçik elmi işçi vəzifəsində çalışmışdır. Bu müddətdə Bahar dəniz neft-qaz-kondensat yatağının işlənməsi layihəsinin məsul icraçısı olmuşdur.

1978-ci ildən bu günə kimi ADNSU-nun "Neft yataqlarının işlənməsi və istismarı" kafedrasında (indiki "Neft-qaz mühəndisliyi" kafedrası) ardıcıl olaraq böyük mühəndis, EHM rəisi, assistent, dosent, professor və "Neft-qaz mühəndisliyi" kafedrasının müdiri vəzifələrində işləmişdir.

1981-ci ildə namizədlik və 1990-cı ildə doktorluq dissertasiyasını müdafiə etmişdir.

1986–1987-ci illərdə Mişkols Ağır Sənaye Universitetinin (Macarıstan) "Neftçıxarma" kafedrasında elmi staj keçmişdir.

1993–1994-cü illərdə Orta Şərq Texniki Universitetinin (Ankara) "Neft mühəndisliyi" kafedrasına dəvət olunmuş və orada professor kimi işləmişdir.

ADNSU-da işləməyə davam edərək 1988–1992-ci illərdə Azərbaycan SSR EA Mexanika və Riyaziyyat İnstitutunun "Neft və qazın qeyri-xətti mexanikası" şöbəsində baş elmi işçi, aparıcı elmi işçi, böyük elmi işçi; 1992–1995-ci illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Layların neftveriminin artırılması şöbəsinin rəisi; 1995–1998-ci illərdə Bakı-Supsa neft kəmərinin inşası layihəsi və texniki rəhbərliyini həyata keçirən Azərbaycan-Britaniya Neft Mühəndislik Şirkətinin (Bakı-Kverner-Kenni) baş direktoru vəzifələrində işləyib.

T.Ş. Salavatovun elmi, nəzəri və təcrübi tədqiqatlarının nəticələrinin Azərbaycan, Tatarıstan, Başqırdıstan, Qərbi Sibirin neft mədənlərində geniş tətbiq olunması sayəsində əhəmiyyətli dərəcədə iqtisadi səmərə əldə olunmuşdur.

O, 1988-ci ildə laya vurulan suyun maqnitləşdirilməsi üçün maqnit qurğusunun işlənilməsinə görə SSRİ XTNS-nin Qızıl medalı ilə təltif olunmuş, 1994-cü ildə isə Kembric Universiteti tərəfindən elm sahəsində "İlin adamı" seçilmişdir. 2003-cü ildə professor elmi adını almış, keçmiş SSRİ məkanında elmi nailiyyətləri qiymətləndirilərək 2004-cü ildə Rusiya Təbiət Elmləri Akademiyasının həqiqi üzvü seçilmişdir.

T. Salavatovun rəhbərliyi ilə 6 texnika elmləri doktoru, 24 texnika üzrə fəlsəfə doktoru (o cümlədən Rusiya, Vyetnam, Misir və Yəmən vətəndaşları) hazırlanmışdır.

T.Ş. Salavatov 2006-cı ildə müsabiqə yolu ilə ADNSU-nun "Neft-qaz mühəndisliyi" kafedrasının müdiri vəzifəsinə seçilmişdir. 2020-ci ildən etibarən kafedrada professor kimi çalışmışdır.

2006-cı ildən hal-hazıra kimi ADNSU-nun nəzdində fəaliyyət göstərən "Neftin, qazın geotexnoloji problemləri və Kimya" ETİ-nin elmi rəhbəri olmuşdur.

Professor T.Ş. Salavatov neft sənayesinin neft və qaz yataqlarının işlənməsi və istismarı sahəsində görkəmli alimlərdən biridir. Onun elmi fəaliyyətinin əsas istiqamətləri aşağıdakılardır:

- göstəricilərin dinamik təhlili əsasında neft və qaz yataqlarının işlənməsində alternativ üsulların yaradılması və tətbiq edilməsi;
- neft və qaz yataqlarının işlənməsinin idarə edilməsi üçün kompromis halların seçilməsi;
- dünya təcrübəsində ilk dəfə olaraq qeyri-Nyuton sistemlərin reofiziki xassələrinə fiziki sahələrin təsirini tədqiq etmək üçün rotoviskozimetriya ilə yanaşı radiospektroskopik (EPR) üsulların tətbiq edilməsi;
- müxtəlif fiziki sahələrin (təzyiq, istilik, maqnit və elektrik) tətbiqi ilə neftçıxarmanın səmərəsinin və layların neftvermə əmsalının yüksəldilməsi;
- böhran qiymətlərindən yüksək parametrlərdə neftvermə əmsalının yüksəldilməsi texnologiyalarının yaradılması;
- neft və qaz yataqlarının işlənməsi proseslərinin səmərəliyinin yüksəldilməsi məqsədilə enerji və resurslara qənaət texnologiyalarının işlənməsi.

T.Ş. Salavatov Azərbaycan Respublikası Təhsil Nazirliyinin Fəxri Fərmanı ilə təltif edilmişdir.

O, Azərbaycan, keçmiş SSRİ, Macarıstan, Türkiyə, Hollandiya, Yunanıstan, Polşa və Misirdə keçirilən çoxsaylı beynəlxalq konqress, konfrans və simpoziumlarda məruzələrlə çıxış etmişdir,

T.Ş. Salavatov 310 elmi əsərin, o cümlədən 11 müəlliflik şəhadətnaməsi və patentin, 13 monoqrafiyanın, dərs vəsaiti və dərsliklərin müəllifidir. Əsərlərinin böyük hissəsi xaricdə (əsərlərinin əhəmiyyətli hissəsi keçmiş SSRİ, Rusiya, ABŞ, Hollandiya, Türkiyə, Macarıstan) çap olunmuşdur və tanınmış beynəlxalq jurnallarda onun əsərlərinə istinad olunur. Azərbaycan və xarici neft şirkətlərinin sifarişi ilə elmi-tədqiqat işlərini yerinə yetirmişdir.

T.Salavatov "Azərbaycan neft təsərrüfatı", Rusiyanın "Нефтепромысловое дело", "Геология, геофизика и разработка нефтяных и газовых месторождений", "Актуальные проблемы нефти и газа" və "Нефтегазовое дело" jurnallarının redaksiya heyətinin və redaksiya şurasının üzvü olmuşdur.

2010-cu ilin oktyabr ayında Rusiya Təbiət Elmləri Akademiyasının Rəyasət Heyətinin qərarı

ilə elmi kadrların hazırlanması və elmi nəticələrinə görə "Uğur Ulduzu" Fəxri nişanı ilə təltif olunub.

2010-cu ilin noyabr ayında Azərbaycan Respublikasının Prezidentinin fərmanı ilə T. Salavatova "Azərbaycan Respublikasının əməkdar elm xadimi" Fəxri adı, 2010-cu ildə "Vyetnam Respublikasının Fəxri neftçisi" adı verilmiş, 2014-cü ildə isə o, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmiş, Azərbaycan Respublikası Prezidentinin 31 dekabr 2020-ci il tarixli sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

T.Salavatov 2001-ci ildən 2008-ci ilə qədər Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Ekspert şurasının üzvü olmuşdur.

Tulparxan müəllimin əziz xatirəsi bütün neftçilərin, onun həmkarlarının, tələbələri və yaxınlarının qəlbində əbədi yaşayacaqdır.

**Allah rəhmət eləsin!**